**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

Bakı şəhəri № 230/2 9 aprel 2012-ci il

Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin müfəttişlərinin təyin edilməsi barədə

Auditorlar Palatası 2011-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2012-ci il üçün iş planının hazırlanması" barədə 3.2-ci, 1-ci müvafiq bəndlərinin icrası ilə əlaqədar, habelə Palata Şurasının 2012-ci il 31 yanvar tarixli 227/1 saylı qərarının 2-ci bəndinə uyğun olaraq Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin sədri M.Abbasovun həmin Komitənin müfəttişlərinin təyin edilməsi üzrə təqdimatında (əlavə olunur) göstərilən namizədlərin siyahısını müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət Komitəsinin müfəttişləri aşağıdakı şəxslər təyin edilsinlər:

Yaşar Adil oğlu Namazəliyev - Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri (qrup rəhbəri)

Cəmaləddin Fərhad oğlu Axundov - Aparatı rəhbərinin müavini (qrup rəhbəri)

Mübariz Şirəli oğlu Hacıyev - Auditin təşkili və təhlili idarəsinin rəisi (qrup rəhbəri)

Bəbir Cəlil oğlu Nəcəfov - Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin Kadr hazırlığı və nəşriyyat şöbəsinin müdir müavini (qrup rəhbəri)

İlham İsfəndiyar oğlu Hacıəzizov - Sərbəst auditor (qrup üzvü)

Elçin Məmmədəli oğlu Əliyev - Sərbəst auditor (qrup üzvü)

Xaləddin Cəlal oğlu Əliyev - Sərbəst auditor (qrup üzvü)

Emil Nizami oğlu Məmmədov - Sərbəst auditor (qrup üzvü)

Elnur Elxan oğlu İbrahimov - Sərbəst auditor (qrup üzvü).

2. Bu qərarın 1-ci bəndində qeyd olunan müfəttəşlərdən (qrup rəhbərləri və üzvləri) tələb edilsin ki, sərbəst auditorların və auditor təşkilatlarının apardıqları auditlərin keyfiyyətinin yoxlanılmasını həyata keçirərkən müvafiq prosedurları vaxtında və məsuliyyətlə icra etsinlər.

3. Komitənin rəhbərliyinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, auditin keyfiyyətinə nəzarət işinin keyfiyyətli və səmərəli təşkilini təmin etsinlər və müfəttişlərin bilik səviyyəsinin daim yüksəldilməsi istiqamətində zəruri tədbirlər görsünlər.

4. Bu qərar Auditorlar Palatasının internet saytında yerləşdirilsin

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**